

Daxili İşlər Nazirliyində işləmək, onun əməkdaşı, zabiti olmaq bir tərəfdən şərəflidir, ikinci tərəfdən də çox məsuliyyətli, əzab-əziyyətlidir.

Heydər Əliyev

# MÜBARİZ KEŞİKDƏ

12 mart 2020-ci il
Cümə axşamı

№ 10 (3475)

www.mk.mia.gov.az

- polisazerbaycan

1933-cü ildən çıxır

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI


## ALTINCI ÇAĞIRIŞ AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN İLK İCLASI KEÇİRİLİB

**Prezident vətəndaşlara səsləndi: "İndi Prezident Administrasiyasında tam başqa bir vəziyyət var. Məlumat verin, şikayət yazın, ictimai nəzarət işində fəal olun".**



Martın 10-da altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclası keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda iştirak edib.

İclası Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev açaraq deputatları təbrik edib. O, deyib ki, Milli Məclisin Daxili Nizamnaməsinin 2-ci maddəsinə görə, parlamentin ilk iclasını ən yaşlı deputat aparır və bu missiya deputat Ziyad Səmədzadəyə nəsib olub.

İclasa sədrlik edən Ziyad Səmədzadə altıncı çağırış Milli Məclisin ilk iclasını açıq elan edib, Milli Məclisə seçilmiş deputatların siyahısını oxuyub.

Sonra Azərbaycan Respublikasının dövlət himni səsləndirilib.

Prezident İlham Əliyev altıncı çağırış Milli Məclisin ilk iclasında nitq söyləyib, altıncı çağırış Milli Məclisin fəaliyyətə başlaması münasibətilə təbriklərini çatdırıb.

O, Milli Məclisin ölkəmizdə aparılan genişmiqyaslı və çoxşaxəli islahatlara öz töhfəsini verəcəyinə əminliyini ifadə edib.

Prezident İlham Əliyev altıncı çağırış Milli Məclisin çoxpartiyalı məclis kimi formalaşdığını vurğulayıb. Seçkilərdə Yeni Azərbaycan Partiyasının yerlərin əksəriyyətini əldə etdiyini deyən dövlətimizin başçısı bildirib ki, siyasi sistemin möhkəmləndirilməsi üçün bütün partiyaların nümayəndələri Milli Məclisin rəhbərliyi və komitələrinin rəhbərliyində təmsil olunmalıdırlar.

Deputatların qarşısında duran vəzifələrdən danışan Prezident İlham Əliyev mövcud qanunların təkmilləşdirilməsinə və qəbul olunmuş qanunların icrasına nəzarətin əhəmiyyətinə toxunaraq, qanunlar qəbul olunarkən iqtisadi inkişafın dərinləşdirilməsinin, milli dəyərlərin qorunmasının, informasiya təhlükəsizliyi, sosial siyasət və gənclər siyasətinin nəzərə alınmasını diqqətə çatdırıb. O, qeyd edib ki, deputatlar seçicilərlə daim təmasda olmalı, onların problemləri ilə maraqlanmalıdırlar. Dövlətimizin başçısı Milli Məclis üzvlərinin beynəlxalq qurumlarda Azərbaycan həqiqətlərini daha geniş şəkildə təbliğ etmələrinin vacibliyindən danışıb, Dağlıq Qarabağ məsələsində ermənilərin tarixi saxtalaşdırmaq cəhdlərinin qarşısının alınmasında fəallığı artırmağın zəruriliyindən söhbət açıb. Prezident İlham Əliyev ölkəmizdə xalqımızın sabitlik, təhlükəsizlik şəraitində yaşadığını diqqətə çatdırıb, ölkəmizin müstəqillik yolu ilə bundan sonra da uğurla addımlayacağını vurğulayıb.

Gündəliyin təqdimatından və təsdiqindən sonra Milli Məclis Sədrinin seçilməsi məsələsi müzakirə olunub.

Yeni Azərbaycan Partiyası tərəfindən deputat Sahibə Qafarovanın Milli Məclisin sədri kimi namizədliyi irəli sürülüb.

Səsvermədə 116 səs lehinə olmaqla, Sahibə Qafarova Milli Məclisin sədri seçilib.

Milli Məclis Sədrinin birinci müavini vəzifəsinə deputat Əli Hüseynli, Sədrinin müavinləri isə deputatlar Adil Əliyev və Fəzail İbrahimli seçiliblər.

İntizam Komissiyasının və Hesablayıcı Komissiyanın tərkibinə namizədlərin adları elan edildikdən sonra Milli Məclisin Daxili Nizamnaməsinə əsasən namizədlər bütövlükdə səsə qoyularaq təsdiq ediliblər.

Milli Məclisin Sədri Sahibə Qafarova komitə sədrliyinə namizədlikləri irəli sürülən deputatların adlarını oxuyub.

Məsələ səsə qoyularaq qəbul edilib.

İclasda Milli Məclisin Komitə sədrləri, sədrlərin müavinləri də seçilib və təsdiq ediliblər.

## TÜRKMƏNİSTAN PREZİDENTİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ



Azərbaycan Respublikasına rəsmi səfərə gələn Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun martın 11-də rəsmi qarşılanma mərasimi olub.

Azərbaycan Prezidenti İlham Əliyev Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovu qarşılayıb.

Prezidentlər fəxri qarovul dəstəsinin qarşısından keçiblər.

Türkmənistan Prezidenti Azərbaycan əsgərlərini salamlayıb.

Azərbaycan nümayəndə heyətinin üzvləri Prezident Qurbanqulu Berdiməhəmmədova, Türkmənistan nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olunub.

Dövlət başçıları rəsmi foto çəkdiriblər.

Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov ilə təkbətək görüşü olub.

Həmin gün Azərbaycan Prezidenti İlham Əliyevin və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub.

Prezidentlər görüşdə çıxış ediblər.

Geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan-Türkmənistan sənədlərinin imzalanması mərasimi olub.

Azərbaycan Prezidenti İlham Əliyevin və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun Birgə Bəyanatını dövlət başçıları İlham Əliyev və Qurbanqulu Berdiməhəmmədov imzalayıblar.

Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov mətbuata bəyanatlarla çıxış ediblər.

***Azərbaycan Prezidenti İlham Əliyev martın 5-də Azərbaycan qadınlarının mükafatlandırılması haqqında sərəncam imzalayıb.***

***Dövlətimizin başçısı martın 5-də Goranboy rayonunun Dəliməmmədli şəhərində yeni ümumtəhsil məktəbi binasının tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.***

***Ölkəmizin rəhbəri martın 6-da Azərbaycan Qızıl Aypara Cəmiyyətinin yaradılmasının 100 illik yubileyi münasibətilə təşkilatın üzvlərinə təbrik məktubu ünvanlayıb.***

***Azərbaycan Prezidenti martın 6-da Azərbaycan Qızıl Aypara Cəmiyyətinin əməkdaşlarının təltif edilməsi haqqında sərəncam imzalayıb.***

***Martın 9-da dövlətimizin başçısı Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Mirdaməd Mirsadıq oğlu Sadıqovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.***

***Martın 9-da ölkəmizin rəhbəri Azərbaycan mədəniyyətinin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Canəli Xanəli oğlu Əkbərovun 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.***

***Azərbaycan Prezidenti İlham Əliyev martın 9-da Hicran Kamran qızı Hüseynovanın Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri vəzifəsindən azad edilməsi haqqında sərəncam imzalayıb.***

***Ölkəmizin rəhbəri martın 9-da Ceyhun Valeh oğlu Məmmədovun Azərbaycan İlahiyyat İnstitutunun rektoru vəzifəsindən azad edilməsi haqqında sərəncam imzalayıb.***

## DAXİLİ İŞLƏR NAZİRLİYİNİN DAXİLİ QOŞUNLARININ ŞƏXSİ HEYƏTİNƏ



*Daxili Qoşunların yaranmasının 28-ci ildönümü münasibətilə sizi, həmçinin hörmətli veteranlarımızı, şəhid olmuş hərbi qulluqçuların ailə üzvlərini ürəkdən təbrik edirəm.*

*Yarandığı gündən şərəfli bir xidmət yolu keçən, respublikanın ərazi bütövlüyü uğrunda döyüşlərdə şücaət və qəhrəmanlıqlar göstərmiş Daxili Qoşunlar ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında monolit bir qurum kimi formalaşaraq dövlətçiliyin sütunlarından birinə çevrilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin əvəzsiz diqqət və qayğısı sayəsində bu gün davamlı inkişafda olan Qoşunların döyüş hazırlığı, müasir silah, texnika, xüsusi vasitələrlə təchizatı, şəxsi heyətinin xidmət şəraiti, sosial müdafiəsi ən yüksək səviyyədədir. Hərbi anda sadiq olan hərbçilərimiz qarşıya qoyulmuş bütün xidməti-döyüş tapşırıqlarının icrasında, o cümlədən ictimai asayişin və daxili təhlükəsizliyin qorunmasında, silahlı cinayətkar dəstələrin zərərsizləşdirilməsində, təbii fəlakətlərin, texnogen qəzaların nəticələrinin aradan qaldırılmasında həmişə yüksək professionallığı və qətiyyəti ilə seçilirlər. Qanunla müəyyən edilmiş vəzifələrin icrasında fərqlənən hərbi qulluqçuların peşə bayramları ərəfəsində dövlət mükafatlarına layiq görülməsi Möhtərəm Prezidentin Qoşunların şəxsi heyətinin xidmətlərinə verdiyi ali dəyərin və etimadının əyani ifadəsidir.*

*Əminəm ki, siz, anda sadiq qalaraq bundan sonra da vətəndaşların və dövlətin qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunmasında səy və bacarığınızı əsirgəməyəcəksiniz.*

*Hamınıza möhkəm cansağlığı, xoşbəxtlik, ailə səadəti, Azərbaycan Respublikasına xidmətdə uğurlar arzulayıram!*

*Vilayət Eyvazov,*
*Azərbaycan Respublikasının*
*Daxili İşlər naziri, general-polkovnik*

# ONLAR BİZİM FƏXRİMİZDİR

***TƏLƏBLƏR İLLƏR ÖNCƏ OLDUĞU KİMİDİR: SAVADI, BACARIĞI OLANLARA HƏR ZAMAN YAŞIL İŞIQDIR. ƏSAS MEYAR ŞƏXSİ NAİLİYYƏTLƏRLƏ YANAŞI, AKADEMİYANIN DA ADINI, NÜFUZUNU UCALTMAQ, ALİ MƏKTƏBLƏR SIRASINDA REYTİNQİNİ YÜKSƏLTMƏKDİR...***



Lütfi Zadə deyirdi ki, qabiliyyət, zəhmət və israr insana məqsədinə çatmaqda kömək edən əsas şərtlərdəndir. Uğura gedən yol hər zaman daşlı-kəsəkli, enişli-yoxuşlu olub və əziyyətsiz rahatlıq qazanmaq mümkün deyil. Yeni bir addım atmaq, yeni bir fikir söyləmək isə həm də cəsarət tələb edir.

Əslində, bu fikirləri yazmaqla uzun illər müşahidə etdiyim və bir zamanlar içində olduğum həqiqəti sizlərlə bölüşmək istəyirəm. Daxili işlər orqanlarına gəlişim bəlkə də ilk günlər, ilk illər mənə möcüzə kimi gəlirdi. İllər ötdükcə anladım ki, istedadını, qabiliyyətini, özünü təsdiq üçün göstərdiyin çabanı görür və qiymətləndirirlər. Yetər ki, inamına söykənib geri çəkilməyəsən və hədəfinə doğru irəliləyəsən...

Bu gün burda təhsil alanların hədəfi yaxşı oxumaq və təhsil aldıqları ali təhsil ocağını əla qiymətlərlə bitirməkdir. Bilirlər ki, xoşbəxtliyə gedən yol kitablardan, intellektdən və yüksək dünyagörüşdən keçir. Bir də ki, bütün bunları əldə etmək üçün burada hər cür şərait yaradılıb. Vətənimizin erməni qəsbkarlarının işğalı ilə üzləşdiyi bir dövrdə yetirmələri əlinə silah alıb döyüşən, şəhidlik zirvəsinə ucalan, sağlamlığını itirən və bu gün də mərd, mübariz, mətin addımlarla gələcəyə doğru irəliləyən hüquqşünaslar, asayiş keşikçiləri hazırlayan Daxili İşlər Nazirliyinin Polis Akademiyasının hansı sınaqlardan keçməsini təsəvvür etmək elə də çətin deyil. Tarixə qısaca nəzər yetirmək kifayətdir.

Ötən dövr ərzində beynəlxalq əlaqələri ildən-ilə genişlənən, mötəbər tədbirlərə evsahibliyi edən, kursantları dünyanın elm və idman arenalarında uğurlar qazanan Polis Akademiyasında təhsil almaq, sözün əsl mənasında, xoşbəxtlikdir.

Kursant adını qazanmaq üçün hər il onlarla məzun sənədlərini məhz Polis Akademiyasına verir. Ancaq heç də hamı arzusuna çatıb, istəyinə nail olmur. Meydan güclülərin, biliyinə, savadına güvənənlərin və əlbəttə ki, qalibiyyət də onlarındır.

Polis olmaq arzusu ilə qəbul imtahanlarından yüksək bal toplamaq işin bir tərəfidir. Əsl sınaqlar qəbul olunduqdan sonra başlayır.

Birincilər sırasında olmaq üçün rəqabətə davam gətirmək də hər kursanta nəsib olmur. Tələblər illər öncə olduğu kimidir: savadı, bacarığı olanlara hər zaman yaşıl işıqdır. Əsas meyar şəxsi nailiyyətlərlə yanaşı, Akademiyanın da adını, nüfuzunu ucaltmaq, ali məktəblər sırasında reytinqini yüksəltməkdir...

**Polis Akademiyasının kursantlarının təhsilə, elmə, tədris müəssisəsinin ictimai həyatında fəal iştiraka marağının, tapşırılan işə yaradıcı münasibətinin artırılması üçün DİN-in 23 aprel 2008-ci il tarixli əmri ilə təsis edilmiş "Heydər Əliyev təqaüdü" gələcək uğurların təməl daşına çevrildi.**

**"Əlaçı müdavim" və I və II dərəcəli "İdmançı müdavim" döş nişanlarının təsis edilməsi isə təlimdə və tədrisdə fərqlənmək istəyənlərin yoluna "yaşıl işıq" yandırdı.**

*Ardı 3-cü səhifədə.*

# YÜKSƏK PEŞƏKARLIQ VƏ QƏTİYYƏT

**DİN Daxili Qoşunlarının yaranmasının 28-ci ildönümü ərəfəsində daha bir sevincli gün yaşadıq. Daxili Qoşunların Ağstafadakı "N" saylı hərbi hissəsinin açılışında ölkə başçımızın iştirakı onu deməyə əsas verir ki, daxili işlər orqanlarının ayrılmaz hissəsi olan Daxili Qoşunların təkmilləşdirilməsi, peşə hazırlığının, maddi-texniki bazasının yüksəldilməsi, iş və məişət şəraitinin yaxşılaşdırılması daim diqqət mərkəzindədir və bu istiqamətdə mühüm addımlar atılır.**



Ötən dövr ərzində Daxili Qoşunlar yüksək peşəkarlığa, döyüş və mənəvi-psixoloji hazırlığa malik quruma çevrilib. Bu gün o, döyüş hazırlığına və maddi-texniki bazasına görə MDB məkanında ön sıralardadır.

Son illərdə Daxili Qoşunlar üçün müxtəlif təyinatlı onlarla obyekt, hərbi şəhərcik, o cümlədən hərbi qulluqçular üçün yeni yaşayış kompleksləri, əsgər kazarmaları, müasir avadanlıqlarla təchiz edilmiş tibb məntəqələri tikilərək istifadəyə verilib. Ümumiyyətlə, ölkəmizdə müstəqilliyin və daxili sabitliyin qorunmasında xüsusi xidmətləri olan Daxili Qoşunların şəxsi heyəti ictimai asayişin və ictimai təhlükəsizliyin təmin olunmasında, cinayətkarlığa qarşı mübarizədə, xüsusi əməliyyatların keçirilməsində fəal iştirakı ilə seçilir, yüksək peşəkarlıq, döyüş və mənəvi-psixoloji hazırlığa malik olduğunu nümayiş etdirir.



Bu qurumun Azərbaycan Daxili İşlər Nazirliyinin müstəqil strukturu kimi yaranması və formalaşması ölkəmizin çox çətin bir dövrünə təsadüf edib.

1993-cü ilin noyabrın 2-də ümummilli lider Heydər Əliyevin xalqa çağırışından sonra Silahlı Qüvvələrimizdə yaranan canlanma və ruh yüksəkliyinin təsiri özünü çox gözlətmədi. Daxili Qoşunların hərbi hissələrindən ibarət qoşun birləşməsinin Arazqırağı işğal olunmuş rayonların polis və Müdafiə Nazirliyinin bölmələri ilə birgə Füzuli istiqamətində apardığı uğurlu hücum əməliyyatı 1994-cü ilin yanvar ayının 5-dən 7-dək Horadiz sərhədyanı yaşayış məntəqəsinin və 12-dən artıq kəndin işğaldan azad olunması ilə nəticələndi.

***Ümumilikdə döyüş əməliyyatları aparılan müddətdə Daxili Qoşunların sıralarından 672 nəfər şəhid olmuş, 1173 nəfər yaralanmış, 9 nəfər itkin düşmüşdür. Hərbi qulluqçulardan 9 nəfərə "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmiş, onlarla əməkdaş Vətənin yüksək mükafatları – orden və medallarla təltif olunmuşdur.***

1995-ci il martın 9-da ümummilli lider Heydər Əliyevin imzaladığı müvafiq Fərmanla Azərbaycan Daxili Qoşunlarının ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda erməni işğalçılarına qarşı döyüşə başladıqları gün–martın 12-si Daxili Qoşunlar Günü elan olunub.

Onlar bu gün də döyüşə hazırdırlar və sıralarındakı yüzlərlə gənclə, hərbiçilərlə daha böyük qəhrəmanlıqlara imza atmaq üçün Ali Baş Komandanın əmrini gözləyirlər.

***Aytəkin Nəcəfova,***
***polis polkovnik-leytenantı***

# BAŞ PROKURORLUQ VƏ DAXİLİ İŞLƏR NAZİRLİYİNİN MƏTBUAT XİDMƏTLƏRİNİN MƏLUMATI

Martın 10-da saat 05:42-də işsiz, 24 yaşlı Ələkbərzadə Aysel Elşən qızı tanışı Yusif İsayevlə spirtli içki qəbul edib Yasamal rayonunda kirayədə yaşadığı yüksək mərtəbəli binanın ikinci mərtəbəsində yerləşən mənzilin pəncərəsindən intihar məqsədi ilə özünü atmışdır.

A.Ələkbərzadə kəllə-beyin və bir ayağının sınığı xəsarəti ilə Kliniki Tibbi Mərkəzinin Reanimasiya şöbəsinə yerləşdirilmişdir. Hazırda vəziyyəti orta-ağırdır və müalicəsi üçün zəruri tədbirlər görülür.

Yasamal rayon prokurorluğunun və Polis İdarəsinin əməkdaşları tərəfindən A.Ələkbərzadənin yaşadığı evə məhkəmə-tibb ekspertinin iştirakı ilə baxış keçirilmişdir. Hadisə yerinə baxış keçirilərkən evdən 2 ədəd 1 litrlik "Kuller" markalı pivənin boş plastmas qabları, o cümlədən iş üçün əhəmiyyət kəsb edən digər maddi sübutlar götürülmüş və müvafiq prosessual hərəkətlər yerinə yetirilmişdir.

Faktla bağlı Yasamal rayon prokurorluğunda Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanılmışdır.

İstintaq zamanı Yusif İsayev ifadəsində həmin gün səhər saatlarında Aysel Ələkbərzadə ilə pivə qəbul etdikdən sonra içkinin qurtarması ilə əlaqədar əlavə spirtli içki almaq üçün mağazaya gedib, geri qayıtdıqda A.Ələkbərzadənin mənzilin pəncərəsindən atmaq istəməsini görsə də, etdiyi səylərə baxmayaraq onun bu hərəkətinin qarşısını ala bilmədiyini göstərmişdir.

A.Ələkbərova hadisədən əvvəl özünə məxsus "facebook" səhifəsində yaxın münasibətlərdə olduğu rəfiqəsi, onun həyat yoldaşı və digər tanışının adlarını çəkməklə onu özünü öldürmə həddinə çatdırmaları barədə martın 10-da saat 04:13-də məlumat paylaşmışdır.

İlkin istintaqla müəyyən edilmişdir ki, A.Ələkbərzadə martın 8-də Bakı şəhərində bir qrup feminist tərəfindən təşkil olunan icazəsiz aksiyada fəal iştirak etmiş və aksiyada əlində tutduğu şüarda əks olunmuş fikirlərə görə bəzi sosial şəbəkə istifadəçilərinin ciddi ictimai qınağına məruz qalmışdır.

Hazırda bir qrup feminist tərəfindən təşkil olunan icazəsiz aksiyada iştirak etmiş A.Ələkbərzadəni intihar etməyə vadar edən təqsirli şəxslərin dairəsinin müəyyənləşdirilərək əməllərinə hüquqi qiymət verilməsi, cinayət işi üzrə bütün halların tam və hərtərəfli araşdırılması üçün zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# BU TORPAĞIN HƏR QARIŞI ŞƏHİDDİR



**Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin və Xətai Rayon Polis İdarəsinin əməkdaşları 8 mart ərəfəsində Aprel şəhidimiz Müşfiq Orucovun ailəsini ziyarət ediblər.**

Şəhidin atası Arif Orucov və anası Aygün Orucova torpaqlarımız uğrunda şəhid olan oğullarımızı, onların ailələrini daim yad etdiklərinə görə asayiş keşikçilərinə minnətdarlıqlarını bildiriblər.

"Bu gün ölkəmizdə sabitliyin qorunmasında fədakarlıq göstərən və cinayətkarlıqla qətiyyətli mübarizə aparan Azərbaycan Polisi şəhidlərimizin xatirəsini əziz tutmaqla gənclərimizi vətənpərvərliyə, Vətəni, torpağı sevməyə səsləyir deyən",- DİN Mətbuat Xidmətinin əməkdaşı, polis polkovnik-leytenantı Hafiz Təmirov tezliklə torpaqlarımızın işğaldan azad olunacağını və o gün şəhidlərimizin ruhunun sevinəcəyinə inamını ifadə edib.

Xətai Rayon Polis İdarəsi rəisinin şəxsi heyətlə iş üzrə köməkçisi, polis polkovnik-leytenantı İdris Məhərrəmov şəhid ailələrinə həm dövlətin, həm də cəmiyyətin xüsusi diqqət və qayğısından, onların sosial müdafiəsinin ildən-ilə yaxşılaşdığından, möhtərəm Prezidentimizin bu sahədə həyata keçirdiyi tədbirlərdən danışıb. O, şəhidimizin valideynlərinə səbr diləyib.

Azərbaycan Dillər universitetinin əməkdaşı Aynur Səfərli polisimizin bu nəcib addımını yüksək qiymətləndirib və bu ənənənin davam edəcəyinə ümidvar olduğunu deyib.

***"Mübariz keşikdə"***

# LAQEYD OLMAYAQ

**Bu günlərdə Bakı şəhər BPİ-nin Dövlət Yol Polisi İdarəsi tərəfindən hazırlanmış videoçarxda, torpaqlarımızın bütövlüyü uğrunda gedən döyüşlərdə sağlamlığını itirmiş cüdo üzrə paralimpiya çempionu İlham Zəkiyev "unutmayın ki, sizin ani səhlənkarlığınız özünüzün və başqalarının həyatını alt-üst edə bilər",- deyərək göz görə-görə özünü ölümə atanlara səslənirdi.**



Bu, əslində, həyəcan siqnalıdır. Hər gün eşitdiyimiz xəbərlərin arxasında həyatla vidalaşan insanların özündən sonra kədər içində onu xatırlayacaq doğması, yaxını, dostu var. Ani bir diqqətsizliyin, qaydalara əməl etməməyin və ya deyilənləri qulaqardına vurmağın hansı təhlükələrə yol açdığını bilə-bilə bəs nə üçün öz sağlamlığımıza biganəyik? Özümüzə, sevdiklərimizə qarşı laqeydliyimiz bizi uçuruma aparır və təəssüflər olsun ki, fərqində deyilik.

Bəzən "tələsirdim" bəhanəsiylə sürət həddini aşanlar, işıqforun qırmızı işığına məhəl qoymayanlar, təhlükəsizlik kəmərini taxmayanlar zamanı geri qaytarmağa çalışsalar da gec olur, beləcə, "yollar yenə can aldı" ifadəsi ümumişlək sözə çevrilir. Əslində, yollar can almır, insan öz ömrünün qənimidir. Reallıq budur ki, bundan nəticə çıxaranların sayı həyatını itirənlərdən çox azdır. Baş verən hadisələrin səbəbləri, aparılan təhlillər bunu deməyə əsas verir.

**Həyatını təhlükəyə atanlara polis yollarda çağırış etməklə, protokol yazmaqla, avtomobilini cərimə meydançasına aparmaqla və bu kimi cəza tədbirləri ilə işini bitmiş hesab etmir. O, həm də maarifləndirir: Bağçada, məktəbdə, elə iş başında da.**

Bəzən böyüklər kiçiklərin "ehtiyatlı ol, ata, ana" sözünü bədbəxt hadisələr baş verəndən sonra xatırlayıb peşmançılıq hissi keçirirlər. Təəssüflər olsun ki, keçirilən maarifləndirmə tədbirlərində yol-hərəkəti təhlükəsizliyini öyrənən uşaqlar, bu qaydalara riayət etməyən valideynlərin törətdiyi qəzaların qurbanı olurlar.

Bu faktdır ki, yollarda heç də həmişə sürücülər qayda pozmurlar, qaydapozmaların müəyyən hissəsi də piyadaların payına düşür. Onlar səhlənkarlıqları ucbatından öz həyatları ilə yanaşı, sürücülərin də həyat və sağlamlıqlarını təhlükəyə atırlar. Çoxu, ən pis halda, cərimə olunacağını düşünüb yolun hərəkət hissəsindən keçməyi ilə səhvinin cəzasını canı bahasına ödəyir...

Elə yeri gəlmişkən, 2019-cu ildə piyada vurmalar ümumi qəzaların 60 faizindən çoxunu təşkil edib.

Sükan arxasında ehtiyatlı olaq, yolu keçərkən yeraltı və yerüstü piyada keçidlərindən istifadə edək, çünki gözləyənlərimiz var.

***Vüsal Məmmədov***

# ONLAR BİZİM FƏXRİMİZDİR

*Əvvəli 2-ci səhifədə.*







Yeri gəlmişkən, bu gün adı gələndə qürur hissi keçirdiyimiz Polis Akademiyasını əla qiymətlərlə, "Heydər Əliyev təqaüdü" ilə bitirənlərin hüquqşünas kimi yetişməsində zəhməti olan professor-müəllim heyətinin gərgin əməyini də xüsusilə qeyd etməliyik. Kursantlara valideyn qayğısı ilə yanaşan, öyrətmək üçün gözünün nurunu, könlünün sevgisini və əsəblərini qurban verən fədakarları, əlbəttə ki, unutmaq olmaz. Elə həmsöhbətlərim də bunu dönə-dönə vurğuladılar.

Onları axtarıb tapmaq asan olmadı. Çünki DİN-in müxtəlif qurumlarında xidmət edirlər. **Yaqublu Orxan Kamal oğlu** 2005-ci ildə DİN-in Polis Akademiyasına daxil olub. Akademiyanı 2010-cu ildə əla qiymətlərlə və "Heydər Əliyev təqaüdü" ilə bitirib. Əlaçı kursant kimi ona "polis baş leytenantı" xüsusi rütbəsi verilib və Gəncə şəhər Baş Polis İdarəsinin İstintaq və Təhqiqat İdarəsində müstəntiq vəzifəsinə təyin edilib. 2014-cü ildən DİN-in Baş İstintaq və Təhqiqat İdarəsində müstəntiq vəzifəsinə irəli çəkilib. Hazırda Baş İdarənin baş müstəntiqidir. Həmkarımıza ötən ildəki fəaliyyətinə görə DİN rəhbərliyi tərəfindən mükafat qaydasında "polis polkovnik-leytenantı" xüsusi rütbəsi verilib.

**Polis polkovnik-leytenantı Bəylər Elgün Nuğay oğlu** 2003-cü ildə 604 balla DİN-in Polis Akademiyasına qəbul olunub. 2008-ci ildə Akademiyanı "polis baş leytenantı" xüsusi rütbəsi və "Heydər Əliyev təqaüdü" ilə bitirib. 2008-2014-cü illərdə DİN-in Baş İstintaq və Təhqiqat İdarəsində təhqiqatçı, müstəntiq və baş müstəntiq vəzifələrində xidmət edib.

2014-cü ilin iyul ayından 2016-cı ilin mart ayınadək Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının üzvü olmaqla vəkil kimi fəaliyyət göstərib. 2016-cı ilin mart ayından DİO-da xidmətə yenidən qəbul olunub. Müxtəlif vəzifələrdə çalışıb. Daxili Təhqiqatlar İdarəsinin Ərizə və şikayətlərə baxılması şöbəsinin rəisidir.

**Polis baş leytenantı Həsənov Şamxal Ərşad oğlu** 2012-ci ildə 663 balla DİN-in Polis Akademiyasına daxil olub. Əlaçı kursant kimi 2013-cü ildən "Heydər Əliyev təqaüdü"nə layiq görülüb. O da Akademiyanı 2017-ci ildə əla qiymətlərlə və "polis baş leytenantı" xüsusi rütbəsi ilə bitirib, DİN-in Baş İstintaq və Təhqiqat İdarəsinin Ağır cinayətlərin istintaqı şöbəsinin müstəntiqi vəzifəsinə təyin edilib. Hazırda Baş İdarənin Nəzarət-Metodiki İdarəsinin müstəntiqidir.

**"Heydər Əliyev" təqaüdçülərindən Fəxri Babazadənin, Nicat Naibovun, Tərlan Zeynalovun və Süleyman Eyvazovun** adını Polis Akademiyasını müxtəlif illərdə bitirmiş əlaçı məzunlar üçün ayrılmış lövhədə görmək çox qürurvericidir.

İnanırıq ki, hələ uzun illər bu gözəl ənənə davam edəcək və sıralarımızda ulu öndərin adını daşıyan təqaüdə layiq görülənlərin sayı ilbəil artacaq.

*Hafiz Təmirov,*
*polis polkovnik-leytenantı*

**"İnsan var qocalır, insan var köhnəlir". Qocalıq da bir nemətdir. Ancaq "köhnəlməyi" insanla heç cürə əlaqələndirmək olmur. Dilimizin qanunauyğunluqları da bunu inkar edir. Bu fikrin fəlsəfi yozumunu çözəndən, daha doğrusu, tarix yaşıdı olanları görüb-tanıyandan sonra aqillərin nə demək istədiyini anladım. O, da qocalanlardandır...**

Doğum günü təbiətin "toy vədəsi"nə-may ayına təsadüf etsə də gəncliyi güllərə yox, güllələrə tuş gəldi. "Böyük Vətən"i müdafiə etmək üçün o da yüz minlərlə soydaşımız kimi silaha sarıldı. Ömrü ölümlərdən sıyrıldı. Gözləri önündə dostları can verdi, mərmilər torpağın altını-üstünə çevirdi. Yaşadıqlarından ona yadigar sinəsini bəzəyən medallar, bu yaşına kimi bədənində gəzdirdiyi qəlpələr və çiyin-çiyinə döyüşdüyü yoldaşlarının acı taleləri oldu. O, bizlərə, elə sizlərə də yaxşı tanışdır...

nına atıldıq. Faşistlər bizi yaxına buraxıb qəfləti atəş açdılar. Geri çəkilməyə məcbur olduq. Ac-susuz bir neçə gün səngərdə gecələdik. Səngərə mərmi düşdü və mən torpaq altında qaldım. Döyüşçü



# QƏLƏBƏ ONUN ALIN YAZISIDIR

Böyük Vətən müharibəsi veteranı, təqaüddə olan polis polkovnik-leytenantı Daşdəmir Kazım oğlu Paşayev 1925-ci il mayın 10-da Lerikdə doğulub. Ehtiyacın, çətinliyin tərs üzünü uşaqlıqdan görüb. Gənclik illəri də odun-alovun içində keçib, çünki o illərin gəncləri hərbi xidmətə deyil, birbaşa cəbhəyə gedirdilər. O, cəbhəyə yola düşəndə 1943-cü il idi. Döyüş meydanlarında faşistlərin xain pusqusu ilə də üzləşib. İndi həmin illəri belə xatırlayır: "Vitebsk şəhərini azad etmək uğrunda dəfələrlə hücum etməyimizə baxmayaraq çoxlu itki verdik. On, on iki nəfər salamat qalmışdıq. Üzbəüz yüksəkliyi tutmaq əmri gələndə yenidən döyüş meydayoldaşlarım məni torpağın altından çıxartdılar. 21 noyabr sübh çağı yenidən hücum əmri verildi. Düşmənin müqavimətini qırdıq və xeyli irəlilədik. Bir tərəfimiz bataqlıq, o biri tərəfimiz isə meşə idi. Qəflətən faşistlər hücuma keçdilər. Yaralandım. Döş qəfəsimə dəyən güllə iki qabırğamı sındırıb, digər ikisini də zədələmişdi. Yaramı bağlayıb məni döyüş meydanından uzaqlaşdırdılar. Qanımın axmağı və qarın üstündə uzanmağım yadıma gəlir..."

Bir neçə ay müalicə aldıqdan sonra cəbhəyə qayıdıb və Belarusiyanın azad olunmasında əsl şücaət göstərib.

***Yeri gəlmişkən, Belarusiyanın azad olunması uğrunda gedən döyüşlərdəki igidliyinə görə o, Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun imzası ilə qələbənin "65", "70" və "75" illik yubiley medalları ilə təltif olunub.***

Müsahibim xatirələrini bölüşdükcə üzündə yaranan təbəssüm qələbə sevincini, alnındakı qırışları kədərini ifadə edirdi. Gözlərində isə yaşananlara görə qürur, fərəh hissi əks olunurdu...

Bu gün o qanlı-qadalı illərin şahidi olmuş veteranlarımıza dövlət tərəfindən də yüksək diqqət və qayğı göstərilir. Onların sosial problemlərinin həlli daim diqqətdə saxlanılır. Tarixə qəhrəmanlıq salnaməsi yazan bu insanları gənclər də unutmurlar. Məktəblərdə və digər əmək kollektivlərində onlarla görüşlər keçirilir, keçdikləri ömür yoluna yenidən nəzər salırlar.

Birinci Avropa Oyunlarının məşəlini əlində tutan, 95-in dizini qatlayan, faşizm üzərində qələbənin 75-ci ilini qeyd etməyə hazırlaşan Daşdəmir müəllimin, hörmətli veteranımızın Qarabağ adlı nisgili də var. O günü, həyatının ikinci Qələbəsini görəcəyinə də inamı var. Çünki qələbə onun qismətidir, alın yazısıdır...

*Teymur Əlizadə,*
*polis kapitanı*

# POLİS İDMANÇI "QIZIL 10-LUQ"DA

**Bu günlərdə "Qızıl 10-luq" idman sorğusunun qaliblərinin mükafatlandırılma mərasimi keçirilib.**



Azərbaycan Mətbuat Şurası, "Olimpiya dünyası" qəzeti və "Olimpsport" jurnalının birgə təşkilatçılığı ilə keçirilən 2019-cu ilin "Qızıl 10-luq" idman sorğusunun nəticələri açıqlanıb. Nəticələrə görə "İlin pəhləvan güləşçisi" nominasiyasında - Kəmər güləşi üzrə 2019-cu ilin dünya çempionu Tural Əliyev də var.

Cəlilabad Rayon Polis Şöbəsinin Post-Patrul Xidməti Bölüyünün taqım komandiri, polis kiçik leytenantı Tural Əliyev pəhləvan güləşində bir çox yarışların qalibi olmaqla yanaşı, həm də beynəlxalq dərəcəli hakim kimi ölkə və beynəlxalq yarışların idarə olunmasında fərqlənib. Məşqçi kimi də fəaliyyət göstərən idmançımızın yetirmələri dəfələrlə beynəlxalq turnirlərdə, mötəbər yarışlarda baş mükafata sahib olublar.

*Natiq Abdullayev,*
*polis kapitanı*

**Həyatın bütün rənglərini özündə əks etdirən baharın gəlişi sevgi, sevinc gətirməklə bərabər hər birimizin yaşamaq, qurub-yaratmaq həvəsini daha da artırır. Martın ilk günündən sonunadək hər günümüz bayram əhval-ruhiyyəli keçir.**

Su, od, yel, torpaq çərşənbələrindən sonra torpaq oyanır. Sanki bütün yaradılmışlar təzələnir, bir başqa rəngə boyanır. Həyat canlanır, ağaclar da, çiçəklər də, quşlar da dil açıb danışır.

Nişanlı qızların bayram xonçası gözləmələri, təzə açan tər çiçəklərin ətrafa yayılan ətridir Bahar. Əlvan duyğularımızı xalı kimi toxuyur, daha sevincli, daha duyğulu oluruq. Həyatımızda yenilik üçün darıxırıq. Dünyasını dəyişmiş əzizlərimiz üçün darıxırıq. Onların ruhunu şad etmək üçün ziyarətlərinə gedirik. Bahara bələnmiş sükut içində həyatın mənası haqqında və dünyanın qəribəlikləri barədə düşünürük. Onların ruhuyla bizim ruhumuz danışır, bayramlaşır sanki.

# ARZULARIN QANADINDA



Elimizin-obamızın gözəl bayramını - Novruzu da qarşılayırıq bu ayda. Bayram şirniyyatının baharın nəfəsinə qarışan ətri ətrafa yayılır. Xonçamızı bəzəyən yaşıl səməni, tonqaldan atlanmaq üçün növbəyə durmaq, qapılara atılan papağı gizlənib gözləmək həyəcanını yaşamaq, kiçikdən böyüyə gülüş bəxş edən kosayla keçəlin məzəli zarafatları, bahar qızının allı-güllü söhbətləri hər kəsin yaddaşına bir nağıl kimi həkk olur. Arzu tutub qapı pusanlar, ilk eşitdiyi sözlə arzusunun nə vaxt çin olacağına inanırlar. Novruz gecəsi sanki nağıllar aləminə düşürük.



Kaş ki, ulu Tanrı bu nağıllarda yaşadığımız gözəl anları həsrətində olduğumuz Şuşamızda, Laçınımızda, Ağdamımızda, Kəlbəcərimizdə, Qubadlımızda yaşamağı, yandırdığımız tonqalları tezliklə bu torpaqlarda qalamağı nəsib etsin bizə.

Bu bahar gələn baharda arzularımızın çin olması diləyi ilə.

*Ruhiyyə Əliyeva,*
*polis baş leytenantı*

## MASKA "İŞBAZLARI"NA QARŞI ƏMƏLİYYAT

Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları tərəfindən ölkə ərazisində son günlər tibbi maskalara artan tələbatdan sui-istifadə edərək bu ləvazimatların



real dəyərindən dəfələrlə baha qiymətə satışını həyata keçirməyə cəhd edən, habelə qaçaqmalçılıq yolu ilə ölkə hüdudlarından kənara çıxarmağa çalışan şəxslərə qarşı kompleks əməliyyat tədbirləri həyata keçirilib. Tədbir zamanı yaranmış vəziyyətdən sui-istifadə edərək qanunsuz yolla gəlirlərini artırmaq istəyən, ayrı-ayrılıqda fəaliyyət göstərən, içərilərində xarici ölkə vətəndaşları da olan bir neçə dəstə ifşa edilib.

Belə ki, əməliyyat zamanı İran İslam Respublikasının vətəndaşları Bahadur Davud, Moenifard Seyidməhəmməd, Saviz Amiryusif külli miqdarda tibbi maskaları satmaq istəyən zaman tutulublar. Həmçinin, Baş İdarə əməkdaşları tərəfindən keçirilən əməliyyat zamanı Çin Xalq Respublikasının vətəndaşları Yang Kun və Yiming Liunun ölkədən qaçaqmalçılıq yolu ilə öz vətənlərinə göndərmək məqsədilə tədarük etdikləri külli miqdarda tibbi maskalar onların Bakı şəhəri Yasamal rayonunda kirayədə yaşadıqları mənzildən aşkar olunaraq götürülüb. Əməliyyat tədbirlərinin davamı olaraq Çin vətəndaşlarını külli miqdarda tibbi maska ilə təmin etməkdə şübhəli bilinən paytaxt sakini Arif İsmayılov da müəyyən edilərək saxlanılıb.

Baş İdarə əməkdaşları tərəfindən keçirilən daha bir tədbir zamanı Xaçmaz rayon sakini Elvin Balamətov, Bakı şəhər sakinləri Elşən Ələkbərov, Aslan Musayev, Şahin Fərzəliyev və Vaqif Mehbalıyev tibbi maskaları real dəyərindən dəfələrlə baha qiymətə satışa təqdim etdikləri üçün saxlanılıblar. Keçirilən tədbirlər nəticəsində, ümumilikdə, 1 milyon 50 min ədəd tibbi maska müəyyən edilərək dəstə üzvlərindən maddi sübut kimi götürülüb.

Aşkar edilən faktlarla bağlı araşdırmalar davam etdirilir.

## CƏZASI BÖYÜKDÜR: NARKOTİK SATIRMIŞ

Cəlilabad Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən narkotiklərin qanunsuz dövriyyəsi və alqı-satqısı ilə məşğul olan rayon sakini Teymur Hüseynov saxlanılıb. Onun üzərində şəxsi axtarış aparılarkən 2 bükүm içərisində 15 ədəd psixotrop maddə olan metadon aşkar olunaraq götürülüb. Əməliyyat tədbirlərinin davamı olaraq Teymur Hüseynovun rayon ərazisində yaşadığı evdə də külli miqdarda narkotik vasitələr gizlətdiyi məlum olub. Onun evinin həyətində yerləşən yarımtikilidən ümumi çəkisi 4 kiloqram 45 qram tiryək və 3 kiloqram heroin aşkar olunaraq götürülüb.

Faktla bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb və saxlanılan şəxs barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Narkotik vasitələrin mənbəyinin müəyyən edilməsi istiqamətində istintaq-əməliyyat tədbirləri davam etdirilir.

## CİNAYƏT ETDİLƏR, TUTULDULAR

Binəqədi rayonu ərazisində yerləşən marketlərdən ayrı-ayrı vaxtlarda satıcıların başının qarışmasından istifadə edən naməlum şəxs iki ədəd mobil telefon oğurlayıb. Rayon Polis İdarəsinin 5-ci Polis Bölməsi əməkdaşlarının həyata keçirdikləri təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri nəticəsində qeyd edilən oğurluqları etməkdə şübhəli bilinən paytaxt sakini Xaliq Qəribov tutulub. Onun mağazalardan oğurluq etməsi obyektlərin müşahidə kameraları vasitəsi ilə anbaan lentə alınıb. Xaliq Qəribov ifadəsində əməlini etiraf edib.

Bölmə əməkdaşlarının həyata keçirdikləri daha bir uğurlu əməliyyat nəticəsində paytaxtın müxtəlif yerlərində azyaşlı uşaqları aldadaraq onların mobil telefonlarını əllərindən alan şəxs saxlanılıb.



Tədbir zamanı yetkinlik yaşına çatmayan Bakı şəhər sakini Bahadur Məmmədov (ad və soyad şərtidir) tutularaq istintaqa təqdim edilib.

Faktlarla bağlı saxlanılan şəxslər barəsində toplanan materiallar Rayon Polis İdarəsinin İstintaq Şöbəsinə göndərilib, araşdırmalar davam etdirilir.

# NAHAQ QAN YERDƏ QALMADI

**Yollar buz bağladığından mənzil başına da vaxtında yetişmədi. İdarə etdiyi yük maşınını bazarın yaxınlığında saxlayıb çoxdan gedib-gəldiyi mənzilin qapısını ehmalca döydü. Küləyin vıyıltısından qapının döyülməsini eşidən yox idi. Özünü toparlayıb bir az da möhkəm döyməyə başladı. Handan-hana içəridən qadın səsi eşidildi:**

***-Gəldim-gəldim.***

Ev sahibəsiydi. Bu həndəvərdə onu hamı yaxşı tanıyırdı. Tək-tənha yaşayan bu qadın evini uzaq yoldan gələnlərə kirayə verirdi. Kimi onu Seyran xala, kimi də Seyran xanım deyə çağırırdı.

Tərslikdən işıqlar da sönmüşdü. Qapı açılan kimi özünü içəri atdı.



***-Rəhmətliyin qızı, deyəsən, ağır eşidirsən dondum ki.***

***-Bir az sakit ol, ay Polad, evdə yatanlar var.***

Köhnə tanışlar mətbəxə keçdilər. Bərk yorulduğundan oturub əməlli-başlı yemək də yemədi. Elə ayaqüstü bir-iki loxma atışdırıb, yatmaq üçün ona isti bir yer ayırmasını xahiş etdi.

***-Gələcəyini bilsəydim sənə çarpayı saxlayardım.***

***-Bəs sobanın yanındakı boşdu axı?***

***-İncimə, onun sahibi var. Gedib, gələcək.***

Ev sahibəsinin sözləri Poladın ürəyincə olmasa da naəlac qalıb yatağına uzandı.

Səhər tezdən oyansa da yerində bir xeyli o tərəf, bu tərəfə qurcalanıb, nəhayət, yatağından qalxdı. Döşəmədə yatmağa vərdiş etmədiyindən beli möhkəm ağrıyırdı. Deyinə-deyinə hamam otağına keçdi. Əl-üzünü yudu. Sobanın yanındakı yatağın açılmadığını görəndə dişi bağırsağını kəsdi:

***-Bəs deyirdin bu yerin müştərisi var, burada heç yatan olmayıb ki.***

***-Mən neyləyim, gəlib çıxmadı da.***

***“Səhərə qədər belimin ağrısından yatmamışam”,***-deyib qapını arxasınca necə çırpdısa, az qala, çərçivəsindən çıxsın.

Əsəbini cilovlaya bilməyən Polad maşının salonundakı araq şüşəsini açıb başına çəkdi və ev sahibəsindən dünənki söhbətə aydınlıq gətirmək üçün geri döndü...

Günortaya yaxın qonşular Seyranın evindən qatı tüstü çıxdığını görüb qorxuya düşdülər. Qapını döyüb onu haraylasalar da səs verən olmadı. Nəhayət qapını sındırıb içəri girəndə ev sahibəsini al qan içində döşəmədə gördülər. O, çoxdan ölmüşdü.

Beləcə, 2011-ci ildə törədilən bu ağır cinayətin üstünü açmaq mümkün olmadı.

Zaqatala RPŞ-nin rəisi, polis polkovniki Vəfadar Orucov ötən ilin yekunu ilə bağlı keçirilən iclasda cinayətkarlığa qarşı mübarizə və ictimai təhlükəsizliyin təmin sahəsində görülmüş işlərin müzakirəsiylə yanaşı, keçmiş illərdən bağlı qalmış bu cinayətin açılmamasına görə narahatlığını diqqətə çatdırdı.

Tapşırığa əsasən, yaradılmış əməliyyat-istintaq qrupu cinayət materiallarını yenidən incələdi. Hadisədən düz 11 il keçməsinə baxmayaraq cinayəti törətməkdə şübhəli bilinən Tərtər rayon sakini, 1970-ci il təvəllüdlü Polad İsmayılovun yeri müəyyən edildi. O, polisə dəvət olundu.

İstintaq müddətində özünü çox sərbəst aparan, indi də izi azdıracağını düşünən Polad həmin vaxt orda qalmasını etiraf etsə də, qətldə heç bir əlaqəsinin olmadığını cid-di-cəhdlə söyləyirdi. Lakin təkzibolunmaz sübutlar qarşısında 11 il əvvəl törətdiyi cinayəti olduğu kimi danışdı...

*Çingiz Şıxverdiyev,*
*polis polkovnik-leytenantı*

# GÜCLƏRİNİ SINADILAR

## *Z.MEFTAXETDİNOVA: “Polis idmançılarımızın yarış təcrübələri ildən-ilə artır”*

Bu yaxınlarda DİN İdman Cəmiyyətində qol güləşi (armrestlinq) və ağırlıq daşlarının qaldırılması üzrə güc çoxnövçülüyü yarışı keçirilib.



Açılış mərasimində çıxış edən DİN İdman Cəmiyyətinin sədri, Olimpiya, dünya və Avropa çempionu, polis polkovniki Zemfira Meftaxetdinova ölkəmizdə bu idman növündə daxili işlər orqanları əməkdaşları arasında yarışların müntəzəm keçirildiyini, əməkdaşların hazırlıq səviyyəsinin daha yüksək nəticələrə ümid etməyə əsas verdiyini, polis idmançılarımızın ildən-ilə yarış təcrübələrinin artdığını diqqətə çatdırdı.

Əsasən dənizçilər arasında yayılan qol güləşi (armrestlinq) idman növü kimi 100 ilə yaxındır ki, tanınır. İdman daşlarının qaldırılması isə vaxtı ilə dövrlərinin ən güclüləri hesab olunan pəhləvanlardan miras qalıb. Güc, dözüm və çevikliyi müəyyən edən güc çoxnövçülüyü indi də orduda, xüsusi təyinatlılar və dənizçilər arasında sevilən yarışmalardandır.

Fiziki gücü yoxlamağın ən asan və sadə üsulu kimi tanınan bu idman növündə polislərimiz əvvəlcə nümunəvi çıxışlar göstəriblər.

Ərazi polis orqanları, nizami hissə və tədris müəssisələrini təmsil edən, ümumilikdə, 11 komandadan 100-dək idmançı qələbə uğrunda mübarizə aparıb.

Gərgin keçən yarışlarda iştirakçılar arasında qaliblər müəyyənləşib. Komanda birinciliyində ilk üçlükdə Naxçıvan MR DİN, Əlahiddə Çevik Polis Alayı və DİN Daxili Qoşunlarının Baş İdarəsinin əməkdaşları qərarlaşıblar.

Yarışı İdman Təlimi Bölməsinin rəisi, polis polkovnik-leytenantı Mülayim Xıdırov idarə edib.

Sonda qaliblərə medallar və diplomlar təqdim olunub.

*Zeyni Hüseynov,*
*polis leytenantı*

# ELAN

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Növbətçi Hissələri İdarəetmə Xidmətinin "102" Xidməti-Zəng Mərkəzi və Respublikanın "ASAN xidmət" Mərkəzləri üzrə vakant olan kiçik rəis heyəti vəzifələrinə xidmətə qəbulla əlaqədar müsabiqə elan edir.

Müsabiqədə yaşı 20-dən 30-dək, boyu 160 santimetrdən yuxarı olan, Azərbaycan Respublikasının ali təhsil müəssisələrini bitirmiş, əvvəllər özü və yaxın qohumları qəsdən törədilmiş ağır cinayətlərə görə məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə" ilə müəyyən edilmiş şərtlərə cavab verən Azərbaycan Respublikasının qadın cinsli vətəndaşları iştirak edə bilərlər.

Həmin vəzifələrdə əmək funksiyalarının spesifikliyi baxımından müsabiqə iştirakçılarının sağlamlıq vəziyyəti, biliyi və fiziki hazırlıq səviyyəsi müəyyən olunmuş normativlər üzrə yoxlanılaraq, kompüter və rabitə avadanlıqları ilə işləmək qabiliyyətinə malik, xarici dillərdən birini sərbəst bilən və ailəli şəxslərə üstünlük veriləcək.

"102" Xidməti-Zəng Mərkəzində iş rejimi gecə və gündüz növbəlilik əsasında təşkil olunur.

Müsabiqə qaliblərinə Azərbaycan Respublikası DİN-in kadrları tərkibinə daxil edilərək müvafiq xüsusi rütbə verilməklə ilkin olaraq "102" Xidməti-Zəng Mərkəzi üzrə 750 manat, "ASAN xidmət" Mərkəzləri üzrə 500 manat aylıq təminat xərcliyi ödəniləcək, habelə qanunvericiliklə müəyyən olunmuş qaydada onların daxili işlər orqanları əməkdaşlarına şamil olunan bütün imtiyazlardan istifadə hüququ olacaq.

İştirak etmək istəyən şəxslər 2020-ci ilin mart ayının 1-dən başlayaraq Daxili İşlər Nazirliyinin internet saytında **/www.mia.gov.az/** yerləşdirilmiş elektron ərizə formasını və qısa anket məlumatlarını şəxsən dolduraraq elektron poçt vasitəsilə DİN-in Baş Kadrlar İdarəsinin **bki@mia.gov.az** elektron ünvanına göndərməlidirlər.

**Əlavə məlumat üçün əlaqə telefonları: (012) 590-93-64 şəhər; 13-64 daxili.**

# AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ, NAZİRLİYİN MÜVAFİQ QURUMLARINDA VAKANT OLAN SIRAVİ VƏ KİÇİK RƏİS HEYƏTİ VƏZİFƏLƏRİNƏ XİDMƏTƏ QƏBULLA ƏLAQƏDAR MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə ali və ya orta-ixtisas, yaxud tam orta təhsilli, yaşı 20-dən 25-dək, boyu 180 santimetrdən hündür, idman cüssəli, həqiqi hərbi xidmət müddətini tam başa vurmuş, əvvəllər özü və yaxın qohumları qəsdən törədilmiş ağır cinayətlərə görə məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə" ilə müəyyən edilmiş şərtlərə cavab verən Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları iştirak edə bilərlər.

Həmin vəzifələrdə əmək funksiyalarının spesifikliyi, yüksək fiziki və psixoloji gərginliklə bağlı olması, eləcə də xidmətin növbəli, bir çox hallarda əsas iş vaxtından əlavə müddətdə aparılacağı baxımından müsabiqə iştirakçılarının sağlamlıq vəziyyəti, biliyi, fiziki hazırlıq səviyyəsi müəyyən olunmuş qaydada yoxlanılacaq.

Ali təhsilli və kompüter avadanlıqları ilə işləmək qabiliyyətinə malik vətəndaşlara üstünlük veriləcək.

İştirak etmək istəyən şəxslər **mia.gov.az./?/az/content/29996/** ünvanda yerləşdirilmiş elektron ərizə formasını şəxsən dolduraraq elektron poçt vasitəsi ilə **bki@mia.gov.az** ünvanına Daxili İşlər Nazirliyinin Baş Kadrlar İdarəsinə göndərməlidirlər.

**Əlavə məlumat almaq üçün əlaqə telefonları: (012)-590-94-12; (012)-590-93-45; (012)-590-92-37; (012)-590-97-52.**

# “XƏTA VƏ XATİRƏ”

## *Polis veteranının növbəti filmi ekranlara çıxacaq*

**Bakıda yol polisi əməkdaşı ilə hakim arasındakı münasibətlərin yol hərəkəti qaydalarına riayət olunmasına necə təsir göstərdiyi barədə qısametrajlı sənədli film çəkilir.**

Yol-nəqliyyat hadisələrinə diqqəti cəlb etmək məqsədilə yol polisi və hakimin dostluğundan bəhs edən "Xəta və Xatirə" adlı filmin ssenari müəllifi və rejissoru polis veteranı Cəlaləddin Qasımovdur.

Filmdə əsas rolları Xalq artisti Sabir Məmmədov, həmçinin Əjdər Zeynalov və Rövşən Məmmədov ifa edirlər.

Rejissor filmin mövzusunun seçilməsini yol-nəqliyyat qəzalarına və onun acı nəticələrinə diqqət çəkmək məqsədilə izah edib: "Film iki dostdan - yol polisi və hakimdən bəhs edir. Polis bir dəfə öz hakim dostunu, sonra da onun oğlunu avtomobil idarə edərkən təhlükəsizlik kəmərini taxmadığı üçün cərimələyir. Bu, hakimin xətrinə dəyir. Bir müddət keçəndən sonra hakimin oğlu təhlükəsizlik kəmərini taxmadığı üçün qəzaya düşür. Hakim bu zaman öz səhvini və dostunun onları niyə cərimələdiyini anlayır".

***Hazırda filmin çəkilişləri davam edir. Rejissor bu filmi beynəlxalq kino festivallarına təqdim etməyə hazırlaşır.***

*Natiq Cavadov*

# Mart ayının 4-dən 10-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, ötən həftə ərzində törədilmiş 184 cinayətin üstü “isti izlər”lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 87 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 234, o cümlədən borclu şəxs qismində axtarışda olan 129 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 10 ağır yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 15 nəfər ölmüş, 10 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 115 fakt müəyyən edilmişdir.




İranda sosial şəbəkədə yeni koronavirusun saxta vaksinini satan şəxs saxlanılıb. İranın kiber polisinin rəis müavininin sözlərinə görə, polis əməkdaşları sosial şəbəkədə reklamlar əsasında həmin şəxsin koronavirusun vaksininə sahib olduğunu iddia etdiyini aşkarlayıblar.

Müttəhim vaksinin qiymətini 8 milyon rialdan (təxminən 190 dollar) yuxarı qiymət təyin edibmiş. Vaksinin indiyədək kimə satılıb-satılmaması da araşdırılır.

*****

***Çində yeni tip koronavirus (COVID-19) epidemiyası ilə əlaqədar prokurorluq orqanları tərəfindən 6 min 428 cinayət işi başlanılıb. 8 min 595 nəfər şübhəli şəxs qismində həmin cinayət işlərinə cəlb olunub. Onlardan 1826 nəfəri haqqında həbs qətimkan tədbiri seçilməsi barədə qərar verilib.***

***Bildirilir ki, sözügedən cinayət işləri virusun yayılmasına qarşı qabaqlayıcı və nəzarət tədbirlərini pozmaq, dövlət qurumlarının işinə mane olmaq, saxta məhsullar istehsalı və satışı ilə bağlıdır. Bundan başqa, 605 cinayət işi vəhşi heyvanların ovlanması və satışı ilə əlaqədardır.***

*****

Ötən il Rusiyada 40-dan çox terrorçu lider, 241 sıravi yaraqlı və onların 606 tərəfdarı tutulub. Bunu Rusiya Milli Antiterror Komitəsi Aparatı rəhbərinin birinci müavini İqor Kulyaqin deyib. Onun sözlərinə görə, antiterror əməliyyatları və operativ-döyüş əməliyyatları zamanı terror qruplaşmalarının 9 lideri daxil olmaqla 32 nəfər zərərsizləşdirilib.

*****

***Moskvada polis saxta ekstrasenslərdən ibarət cinayətkar qrup ifşa edib. Onlar insanları aldadaraq 2 milyon rubldan çox vəsaiti mənimsəyib. Əməliyyat zamanı dəstənin rəhbəri də daxil olmaqla 10 nəfər yaxalanıb.***

***Dələduzlar sosial media vasitəsilə qurbanlarının problemlərini dinləyərək onlara müəyyən məbləğ qarşılığında yardım vəd edirmişlər.***

MÜBARİZ KEŞİKDƏ qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
BURAXILIŞA MƏSUL: E.ZAHİDOV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 10.044
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 18:00
Qiyməti 40 qəpik